# İntihar üsulu ilə düşüncə və zodiak bürclərinin əlaqəsi

***(Qeyri-tarazlıq psixologiyası kontekstində təhlil)***

**Məhərrəm Sabir oğlu Əliyev**
*ADPU-nun "Ümumi psixologiya" kafedrasının dosenti*
**E-mail:** m_a_1977@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d., dos. R.N. Mirzəyev

**Açar sözlər:** qeyri-tarazlıq psixologiyası, intihar, intihar üsulu, Zodiak bürcləri
**Ключевые слова:** неравновесная психология, самоубийство, способы самоубийства, знаки Зодиака
**Key words:** non-equilibrium psychology, ssuicide, methods of suicide, Zodiac signs

*Bu məqalənin məqsədi intihar üsulu ilə düşüncə və zodiak bürcləri arasında əlaqəni araşdırmaqdır. Tədqiqat Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Bakı Qızlar Universitetinin və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 357 tələbə gəncini (65 kişi, 292 qadın), o cümlədən 2013-2015-ci illər aralığında Azərbaycanda intihar etmiş 224 şəxsin, o cümlədən, bir qisim məşhur şəxsin (31 nəfər) qısa bioqrafik məlumatlarını (əsasən doğum və ölüm tarixlərini) əhatə etməkdədir. Tədqiqatda intihar üsulu ilə düşüncə və zodiak bürcləri arasında əlaqə intiharın 7-li preventiv modelinə əsaslanan sorğu və bioqrafik metodla öyrənilmişdir. Alınmış nəticələr IBM SPSS Statistics v22 proqramı vasitəsilə analiz edilmişdir. Tədqiqat nəticəsində intihar üsulu ilə düşüncə və zodiak bürcləri arasında korrelyativ əlaqə olduğu aşkar edilmiş və intihar edənlərin intihar üsulunu təsadüfi seçməmələri (33%) müəyyən edilmişdir. Eyni zamanda, intiharın qarşısının alınması məqsədilə öncədən intihar üsulunun ehtimal edilməsi üzrə proqnostik model hazırlanmışdır.*

## 1. Giriş

Son illərdə intiharların sayının çoxalması psixologiya elmində bu sahəyə diqqəti artırmışdır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST-ün) məlumatına görə, hər il 700000-dən çox adam intihar edir və 15-19 yaş qrupları arasında bu hal aparıcı ölüm səbəblərindən dördüncüsü sayılır (18). Ələlxüsus pandemiyanın bütün dünyada geniş yayıldığı və insanların ölümünə səbəbiyyət verdiyi müasir günümüzdə intihar hallarının psixoloji səbəb və mexanizmlərinin öyrənilməsi vacib və aktual əhəmiyyət kəsb edir. Belə ki, ÜST də sağlamlığın mühafizəsi kontekstində intiharı ən prioritet məsələlərdən biri sayır (18).

Psixoloji ədəbiyyatlarda intihara müxtəlif təriflər verilir (8; 5; 9; 6; 4; 10; 7; 13; 12; 3; 2 və b.). İntihara, əsasən, insan tərəfindən özünə qarşı edilən həyatın itirilməsilə nəticələn qəsd davranışı kimi baxılır. Diqqətimizi çəkən əsas müddəalardan biri ondan ibarətdir ki, suisidal davranışın əsasında "ruhi ağrı" adlandırılan xüsusi psixoloji mexanizm dayanır (11). Müasir suisidologiyada dörd əsas yanaşma fərqləndirirlər (6) ki, biz onların içərisindən bioloji yanaşmanı (intihar xəstə orqanizmlərdən qurtulmanın "uyğunlaşma" mexanizmi kimi təkamül xarakterindən, özünü məhv etmənin instinktiv təbiətindən irəli gəlir) və psixoloji yanaşmanı (suisidal meyllərin yaranmasında psixoloji faktorlar aparıcı rola malikdir) əsas götürürük. Əgər biz suisidə davranış kimi baxsaq, o zaman, yolun sonuna gəlindiyini qəbul etməli və gerçəkdən də suisidin qarşısının alınmaz olunduğu qəbul etməliyik. Lakin biz bunu qəbul edə

bilmərik. Ona görə də, mövcud nəzəri fikirləri və yanaşmaları nəzərə almaq şərtilə, yeni yanaşmanı təqdim etmək istəyirik. Bu yeni yanaşma, qeyri-tarazlıq psixologiyası kontekstində inkişaf etdirilir.

Qeyri-tarazlıq psixologiyasında suisid anlayışı insanın həmin an üçün verdiyi (şüurlu və ya şüursuz olaraq) qərarlardan biri olaraq qəbul edilir, başqa sözlə, suisidə qəbul edilmiş qərarlardan biri kimi baxılır. Belə olduqda, suisid probleminin həlli yolu kimi həmin qərarın dəyişdirilməsi əsas sayılır.

Fikrimizcə, intihar enerjisi lazımi həddə çatdıqda, istənilən insan özünəməxsus şəkildə özünü öldürə bilər. Başqa sözlə, bizim iddiamıza görə, hər bir insan doğuşdan intihar etmə gücünə və imkanına malik olur. Sadəcə hamı özünü öldürəcək enerji həddinə çata bilmir, başqa sözlə, qeyri-tarazlıq halında intiharı sadəcə ediləcək davranışlardan biri olaraq ehtimal etmək doğru olar. Həmin hədd təklif etdiyimiz düsturla ölçülə bilər. İddiamıza görə, intihar ehtimalı, əsasən, üç dəyişəndən asılıdır:

1. Üzücü problemin sayı (ölçüləbiləndir)
2. Problemin tezliyi (ölçüləbiləndir)
3. Problemə münasibət (hələlik ölçüləbilən deyil)

Düstur şəklində onu aşağıdakı kimi formulə edə bilərik:

$$Ei = (Tp\ ,\ Sp)\ Md$$

Burada *E*-enerji, i-intihar, *T*-problemin tezliyi, *p*-problem, *S*-problemin sayı, *M*-problemə münasibət, *d*-dəyərdir.

Düstur indiki anda və verilən şərtlərdə insanın zaman oxunda mövcud olan problemlərin kəmiyyətini və keyfiyyəti haqda məlumat verir. İndiki anda və verilən şərtlərdə insanın operativ zaman yolunda mövcud olan problemlərin sayı və tezliyi problemin dəyərliliyinə münasibətlə əlaqədə müvafiq enerjinin yaranmasına və nəticədə intihar halının baş verməsinə gətirib çıxarır. Yəni bu halda, intihar qərarı intihar davranışı ilə yekunlaşır. Nəticədə onu deyə bilərik ki, intiharçının qərarını dəyişdirməsi üçün verilən dəyişənlərdən birinin və ya bir neçəsinin dəyişdirilməsi gərəkdir.

Bununla yanaşı, qeyd etməliyik ki, insan kosmosla bir hərəkət etdiyindən onların ortaq özəllikləri vardır. Həmin ortaq özəlliklərdən biri eyni dalğa boyunda sinxronlaşa bilmələridir (7, 23 cps - cycles per second). Həmçinin bir çox elmi-populyar ədəbiyyatda və internet resurslarında kosmosun bir parçası olan insanın həyatında dörd elementin və həmin elementlər qrupuna daxil olan zodiak bürclərinin oynadığı rola işarə edilir (14; 15; 16). Dörd kosmik elementin insan şəxsiyyətinin dörd psixoloji keyfiyyətinə uyğunluğu xüsusilə diqqəti cəlb edir (15): Od – biliklə, Hava – cəsarətlə, Su – arzu ilə və Yer (torpaq) isə – səssizliklə. Od müdrikliyi gərəkdirir, deməli, od – bilikdir, bilik isə insanın kulminasiya nöqtəsidir. Hava – biliyə çatma cəsarətidir, deməli, ola bilsin ki, inamdır. Su – istəkdir, arzudur. Başqa sözlə, cəsur və müdrik olmaq üçün, öncə bunu istəmək lazımdır. Yerin (torpağın) uyğun olduğu səssizlik yolun ilk mərhələsidir.

Bütün bu deyilənlər əsasında tədqiqatda iki hipotez irəli sürülmüşdür:

I hipotez ondan ibarətdir ki, insanların düşüncələri ilə onların zodiak bürcləri arasında əhəmiyyətli əlaqə vardır;

II hipotez ondan ibarətdir ki, əgər hər bir insan iddia etdiyimiz kimi doğuşdan intiharetmə meylinə malikdirsə, onda onların intiharetmə üsullarını seçməsi təsadüfi ola bilməz.

Bu hipotezlərin əsasında tərəfimizdən inkişaf etdirilən Qeyri-tarazlıq psixologiyasının əsas müddəaları dayanır:

I müddəaya görə, bütün insanlar doğuşdan intiharetmə meylinə malikdir;

II müddəaya görə, insanın yaşadığı şok anların kəmiyyət və keyfiyyəti haqda məlumatın olması onun gələcəkdəki davranışlarının istiqamətini ehtimal etməyə imkan verir.

III əsas müddəaya görə, insanların yaşadığı şoklar onların "operativ zaman" xəttinə düşdüyü anda davranışlarına yön verməyə başlayır.

IV əsas müddəa ondan ibarətdir ki, insanların işlətdiyi cümlələr müəyyən "fikir-hiss sahə"si formalaşdırmaqla, onların davranışlarını dəyişdirə bilir.

2. Metod

2.1. Sınanılanlar

Tədqiqat Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Bakı Qızlar Universitetinin və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 357 tələbə gəncini (65 kişi, 292 qadın), o cümlədən 2013-2015-cil illər aralığında Azərbaycanda intihar etmiş 224 şəxsin, o cümlədən, bir qisim məşhur şəxsin (31 nəfər) qısa bioqrafik məlumatlarını (əsasən doğum və ölüm tarixlərini) əhatə etməkdədir.

2.2. Metodika

Tədqiqatda intihar üsulu ilə düşüncə və zodiak bürcləri arasında əlaqəni öyrənmək üçün intiharın 7-li preventiv modelinə (1) əsaslanan sorğu və bioqrafik metod istifadə edilmişdir. Həmin suallardan biri (33-cü sual) aşağıdakı şəkildədir:

Aşağıdakı hökmlərdən hansı nə zamansa sizin ağlınızdan keçmişdir?

a) Mən uça bilərəm ☐
b) Bıçaq məni kəsməz ☐
c) Suda əsla boğulmaram ☐ ☐
d) Odda yanmaram ☐
e) Hündür bir yerdən düşsəm, ölmərəm ☐
f) Güllə məni deşməz ☐
g) Sizin seçiminiz___________________ ☐

Bu sualın tərtibi birinci və dördüncü müddəalarımıza əsaslanır, belə ki, a) əgər insan gerçəkdən doğuşdan intihaetmə meylinə malikdirsə, intihar üsulunu təsadüfi seçə bilməz və b) uşaqlıqdan etibarən müvafiq cümlələr şəklində qurduğu "super düşüncə" (xəyallar) da təsadüfi ola bilməz, deməli, həmin düşüncələr onun "fikir-hiss sahə"sini formalaşdırmaqla, davranışlarını dəyişdirə və intihara sövq edə bilər. Bu hipotezləri yoxlamaq məqsədilə aşağıdakı şəkildə tədqiqat keçirilmişdir.

2.3. Tədqiqatın keçirilməsi

Tədqiqatın birinci mərhələsində I hipotezin doğruluğunu sübut etmək məqsədilə sınanılanlara özündə demoqrafik sualları da əks etdirən 33 sualdan ibarət sorğu təqdim edilmişdir. İkinci mərhələdə isə intihar etmiş şəxslərin, o cümlədən, bir qisim məşhur şəxsin (31 nəfər) qısa bioqrafik məlumatları (əsasən doğum və ölüm tarixlərini) təhlil edilmiş və onların intiharetmə üsulları müəyyən edilmişdir. Daha sonra əldə olunmuş nəticələr qarşılaşdırılmışdır. Alınmış nəticələr IBM SPSS Statistics v22 proqramı vasitəsilə analiz edilmişdir.

3. Nəticə

Tədqiqat nəticəsində məlum olmuşdur ki, intihar edən şəxslər intiharetmə üsulunu təsadüfi seçmir. Onların belə üsulu seçməsində qanunauyğunluq vardır. Bu qanunauyğunluq apardığımız analiz əsasında müəyyən edilmişdir. Əsas o fakt olmuşdur ki, tələbələrlə keçirdiyimiz sorğu nəticəsində uşaqlıqdakı xəyallar ("super düşüncə" adı ilə kodlanmış) ilə tələbələrin bürcləri arasında əhəmiyyətli əlaqə aşkarlanmışdır.

Sorğuda iştirak edən tələbələrin (357 nəfər) bürc məlumatları müvafiq sualda (33-cü sualda) adı keçən cavablarla qarşılaşdırılmış və "super düşüncə" ilə (uşaqlıqda xəyal edilən fikir-

lə) bürclər arasında korrelyasiyanın olduğu aşkarlanmışdır.

**Cədvəl 1**

**Bürclə "super düşüncə" arasındakı korrelyasiya**

| | | Super düşüncə |
|---|---|---|
| Bürc | Pirson korrelyasiyası | .165** |
| | Əhəm. (ikitərəfli) | .002 |
| | N | 357 |

**. Korrelyasiya 0,01 (ikitərəfli) səviyyəsində əhəmiyyətlidir.

Cədvəl 1-dən göründüyü kimi, bürclə "super düşüncə" arasında müəyyən müsbət korrelyasiya ($p<0,01$) aşkarlanmışdır. Yəni insanlar özlərinin zodiak bürc məlumatlarına əsasən düşüncə şəklinə sahib olurlar və intiharetmə haqqında düşünərkən müvafiq düşüncənin sehrinə qapılırlar. Əldə etdiyimiz nəticələri dəqiqləşdirmək məqsədilə apardığımız təhlillər nəticəsində məlum olmuşdur ki, 33% halda insanlar bürclərinə müvafiq şəkildə, ilk elementə ahəngdar üsuldan istifadə edib özlərinə qəsd edirlər. Bu faiz az görünə bilər, lakin unutmaq olmaz ki, təhlilin gedişində bürclərin yüksələnləri obyektiv səbəblərdən hesablana bilməmişdir. Deməli, insanlar intiharetmə üsulunu təsadüfi seçmir. Hər iki hipotez tədqiqat nəticəsində sübut edilmiş olur.

Tədqiqat nəticəsində intiharların qarşısının alınması məqsədilə proqnostik model hazırlanmışdır:

**Cədvəl 2**

**Suisidin qarşısını almaq üçün proqnoztik model**

| **I Meyar** | ***TƏKAMÜLÜN 3 ƏSAS PRİNSİPİ*** | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | YAN-kişi (Yaradıcılıq zonası) | | | | İN-qadın (Stabillik zonası) | | | | DEN-orta (Transformasiya zonası) | | | |
| **II Meyar** | ***İLK ELEMENTLƏR*** | | | | | | | | | | | |
| | OD | TORPAQ | HAVA | SU | OD | TORPAQ | HAVA | SU | OD | TORPAQ | HAVA | SU |
| **III Meyar** | ***BÜRCLƏR*** | | | | | | | | | | | |
| | QOÇ (21.03-20.04) | BUĞA (21.04-21.05) | ƏKİZLƏR (22.05-21.06) | XƏRÇƏNG (22.06-22.07) | ŞİR (23.07-23.08) | QIZ (24.08-23.09) | TƏRƏZİ (24.09-23.10) | ƏQRƏB (24.10-22.11) | OXATAN (23.11-21.12) | OĞLAQ (22.12-20.01) | DOLÇA (21.01-18.02) | BALIQLAR (19.02-20.03) |

Təkamülün 3 əsas prinsipi:

1) Yan – aktiv, kişi, ekstravert;

2) İn – qadın, maqnetik, introvert;

3) Den – birləşdirən başlanğıc, orta.

İlk dörd element və onların qrupuna daxil olan bürcləri aşağıdakı şəkildə göstərə bilərik:

1. Od – Qoç, Şir, Oxatan
2. Yer (Torpaq) – Buğa, Qız, Oğlaq
3. Hava – Əkizlər, Tərəzi, Dolça
4. Su – Xərçəng, Əqrəb, Balıqlar

Bu model əsasında insanların intiharetmə üsulları ehtimal edilə və öncədən həmin üsulların tətbiq edilməməsi istiqamətində maarifləndirici işlər aparıla bilər.

4. Müzakirə

Tədqiqat sonunda gəldiyimiz nəticə ilə bağlı onu deyə bilərik ki, bu sahədə tədqiqatlara, əsasən, rast gəlinmir. Lakin bir yazıda zodiak bürcləri intiharetmə üsulları kimi qeyd edilir (17). Həmin yazıya görə, hər bürcün özünəməxsus intihar üsulu var. Aşağıdakı cədvəldə bu bölgü ilə tanış ola bilərik:

**Cədvəl 3**

**Bürclərin özünəməxsus intihar üsulları**

| № | Bürclər | İntihar üsulu |
|---|---|---|
| 1 | Qoç | Özünü yandırma |
| 2 | Buğa | Acqalma |
| 3 | Əkizlər | Zəhər |
| 4 | Xərçəng | Qanaxıtma |
| 5 | Şir | Susuzluq |
| 6 | Qız | Asma |
| 7 | Tərəzi | Hündürdən düşmə |
| 8 | Əqrəb | Nəqliyyat vurması |
| 9 | Oxatan | Suda batma |
| 10 | Oğlaq | Boğulma |
| 11 | Dolça | Niyyətli yoluxma |
| 12 | Balıqlar | Ritual suisid |

Biz cədvəldə qeyd edilən şəkildə məsələyə yanaşmamışıq. Fikrimizcə, intihar üsulları müəyyən meyar üzrə qruplaşdırılsa daha yaxşı olar. Bu məqsədlə, biz intihar üsullarını dörd element üzrə qruplaşdırmışıq. Belə qruplaşdırmada eyni element qrupuna daxil olan bürclərin insanları oxşar intihar üsulundan istifadə edə bilərlər. Əlbəttə ki, beşinci element də – metal – bəzən daxil edilə bilər. İntihar üsulları aşağıdakı şəkildə qruplaşdırılır:

1. Od – atəş açma (özünü güllələmə), yandırma
2. Yer (Torpaq) – hündürdən tullanma, nəqliyyat vurması
3. Hava – asma, boğulma, suda batma
4. Su – zəhər, dərman içmə, qanaxıtma, susuzluq, suda batma
5. Metal – bıçaqlama, nəqliyyat vurması

Proqnostik model sayəsində öncədən intihara meylli insanların seçəcəyi intihar üsulları ehtimal edilə və müvafiq profilaktik tədbirlər planı hazırlana bilər. Hətta bu modeldən kriminalistikada istifadə edilə bilər, belə ki, intihar üsulu seçiminə görə intihar hadisəsinin özünü öldürmə yoxsa cinayət olduğu daha böyük dəqiqliklə ehtimal edilə bilər.

**Məqalənin aktuallığı.** İntihar üsulunun öncədən ehtimal edilə bilməsi insan ölümünün qarşısının alınmasında əvəzsiz rol oynamaqla, intiharların önlənməsi istiqamətində yeni addımların atılması və profilaktik tədbirlərin fərqli planının hazırlanması baxımından elmi-nəzəri və praktik aspektdə xüsusilə aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə psixologiyanın yeni sahəsi olan Qeyri-tarazlıq psixologiyası kontekstində intihar üsulu ilə düşüncə və zodiak bürclərinin əlaqəsi öyrənilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** İntihar üsulu ilə düşüncə və zodiak bürcləri

arasında koorelyativ əlaqənin tapılması zəminində təklif olunan proqnostik model həm psixologiya sahəsində intiharların qarşısının alınmasında, həm də kriminalistikada istifadə edilə bilmə adına yeni perspektivlər açmış olur.

## Ədəbiyyat

1. Əliyev M. İntiharın qarşısının alınmasında yeni yanaşma: intiharın 7-li preventiv modeli / Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2017, № 4, s. 192-198.

2. Амбрумова А.Г., Тихоненко В.А. Профилактика суицидального поведения: методические рекомендации. М., 1980, 24 с.

3. Бандура А. Теория социального научения / пер. с англ. Н.Н. Чубарь. - СПб.: Евразия, 2000, 320 с.

4. Дюркгейм Э. Самоубийство: Социологический этюд / Пер. с фр. с сокр.; Под ред. В. А. Базарова. М.: Мысль, 1994, 399 с.

5. Ефремов В. С. Основы суицидологии. СПб.: Диалект, 2004, 480 с.

6. Кондратенко В. Т. Девиантное поведение у подростков: социально психологический и психиатрический аспекты. Минск: Беларусь, 1988, 206 с.

7. Менингер К. Война с самим собой / пер. Ю. Бондарева. М.: Изд-во ЭКСМО-Пресс, 2001, 480 с.

8. Погодин И. А. Суицидальное поведение: психологические аспекты: [электронный ресурс] учеб. Пособие. 2 е изд., стереотип. М.: Изд-во Флинта, 2011.

9. Тихоненко В.А., Дурное А. Н. Методика обследования суицидентов с помощью суицидологической карты // Актуальные проблемы суицидологии: Сб. науч. трудов. М.: Московский НИИ психиатрии, 1978, с. 218–219.

10. Фрейд 3. Печаль и меланхолия // Суицидология: прошлое и настоящее. М.: Когито-центр, 2001, с. 255-270.

11. Шнейдман Э. Душа самоубийцы / пер. с англ. М.: Смысл, 2001, 315 с.

12. Эриксон Э. Детство и общество. СПб.: Ленато, АСТ, Фонд «Университетская книга», 1997, 592 с.

13. Юнг К.Г. Аналитическая психология и психотерапия: хрестоматия. - СПб.: Питер, 2001, с. 232.

14.https://ru.wikipedia.org/wiki/%D0%A1%D1%82%D0%B8%D1%85%D0%B8%D0%B8_(%D1%84%D0%B8%D0%BB%D0%BE%D1%81%D0%BE%D1%84%D0%B8%D1%8F)

15. http://www.symbolizm.ru/index.php/alchemy/446-4elements

16. https://www.andrewbozhko.com/kak_obrazyutsa_4_kvadri

17. https://aminoapps.com/c/aminogoroskop/page/blog/znaki-zodiaka-kak-sposoby-samoubiistva/ oX3G_ k5Cdu7npXDgWeKDB8mYapR2DrNq6M

18. https://www.who.int/ru/news-room/fact-sheets/detail/suicide

**М.С. Алиев**

## Связь между способами самоубийства и суицидальными идеями, и знаками зодиака: анализ в контексте Неравновесной психология

### Резюме

Цель этой статьи изучить взаимосвязь между самоубийством и мышлением и знаками зодиака. В исследовании охватывает 357 студентов (65 мужчин, 292 женщины) Азербайджанского Государственного Педагогического Университета, Бакинского Девичего Университета и Азербайджанской Государственной Академии Физической Культуры и Спорта, в том числе краткие биографические данные (в основном даты рождения и смерти) 224 человека, покончивших жизнь самоубийством в Азербайджане в период с 2013 по 2015 год, в том числе некоторых знаменитостей. В исследовании изучалась связь между способами самоубийства и суицидальными идеями, и знаками зодиака с помощью опроса, основанного на 7-й превентивной модели самоубийства и биографического метода. Результаты анализировались с помощью IBM SPSS Statistics v22. Исследование обнаружило корреляцию между способами самоубийства и суицидальными идеями, и знаками зодиака и обнаружило, что самоубийцы выбирают самоубийство не случайно (33%). В то же время была разработана прогностическая модель с целью предотвращения самоубийств.

**M.S. Aliyev**

## Connection between methods of suicide and suicidal ideas and signs of the zodiac: analysis in the context of Non-equilibrium psychology

### Summary

The purpose of this article is to explore the connection between suicide and thinking and zodiac signs. The study covers 357 students (65 men, 292 women) of the Azerbaijan State Pedagogical University, Baku Maiden University and the Azerbaijan State Academy of Physical Culture and Sports, including brief biographical data (mainly dates of birth and death) of 224 people who committed suicide in Azerbaijan between 2013 and 2015, including some celebrities. The study examined the connection between suicidal behavior and suicidal ideation and zodiac signs using a survey based on the 7th Preventive Suicide Model and Biographical Method. Results were analyzed using IBM SPSS Statistics v22. The study found a correlation between methods of suicide and suicidal ideation and zodiac signs and found that suicides do not choose suicide by chance (33%). At the same time, a predictive model was developed to prevent suicide.

**Redaksiyaya daxil olub:** 24.11.2021